

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 139 (21.800)

26 iyul 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyası keçirilmişdir





İyulun 25-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyası keçirilmişdir.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilmişdir:

1. 2017-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları

2. "Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklikler edilməsi

3. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi

4. "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi

5. "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun qəbul edilməsi

6. "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun qəbul edilməsi

Gündəlikdə duran birinci məsələ ilə bağlı çıxış edən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov demişdir ki, 2017-ci ilin ötən dövrü ərzində tikinti sektorunda sosial sahələrin inkişafına üstünlük verilmiş, Naxçıvan şəhərindəki 3 və 13 nömrəli, Şərur şəhərində 2 nömrəli, Şərur rayonunun Çəmənli, Şahbuz rayonunun Kolanı kəndlərində tam orta məktəb binaları, Naxçıvan şəhərinin Tumbul, Şərur rayonunun Çəmənli və Arpaçay kəndlərində kənd və xidmət mərkəzləri, Kəngərli rayonunun Qıvraq qəsəbəsində 222 yerlik uşaq bağçası istifadəyə verilmiş, Şərur Rayon Mərkəzi Xəstəxanasında əsaslı təmir işləri başa çatdırılmışdır. Naxçıvan şəhərində 1 yaşayış binası tikilmiş, Babək Rayon İcra Hakimiyyətinin inzibati binasında və Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin idman zalında yenidənqurma işləri aparılmışdır. Bu dövrdə Naxçıvan Müəllimlər İnstitutu üçün yeni korpusun, 4 məktəb binasının, 1 musiqi məktəbinin, 2 həkim ambulatoriyasının, Kəngərli və Sədərək rayonlarının hər birində 48 mənzilli yaşayış binalarının, Araz çayı üzərində 36 meqavat gücündə derivasiya tipli Ordubad Su Elektrik Stansiyasının, Sədərək gömrük-sərhəd buraxılış məntəqəsinin, Naxçıvan şəhərində yeni məscidin və 10 kilometrlik Şıxmahmud-Xəlilli-Naxçıvan şəhər avtomobil yolunun tikintisi aparılmışdır. Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsi üçün tədris korpusunun, 3 məktəb binasının, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublika Mərkəzi Uşaq Xəstəxanasının, Naxçıvan şəhərində 5 yaşayış binasının, Sədərək rayonunda mədəniyyət evinin, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının Naxçıvan şəhərinin Qaraçuq kəndində yerləşən sərhəd məntəqəsinin inzibati binasının yenidən qurulması davam etdirilmiş, Qarabağlar Türbə Kompleksində və Yengicə hamamında bərpa işləri, Kəngərli rayonunun Şahtaxtı kəndindəki Şahtaxtinskilər muzeyində isə təmir işləri görülmüşdür.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev demişdir ki, qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin icrası, güzəştli kreditlərin verilməsi, meliorasiya və irriqasiya tədbirlərinin gücləndirilməsi, lizinq xidmətinin genişləndirilməsi, taxıl və soyuducu anbarların həcminin artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin yaradılması muxtar respublikada kənd təsərrüfatının dinamik inkişafını təmin etmişdir. Artıq muxtar respublikada yaz əkinləri başa çatdırılmışdır. Hazırda əkin sahələrində aqrotexniki qaydada becərmə tədbirləri aparılmaqla yanaşı, meyvə-tərəvəz və kartof məhsullarının toplanılması, taxıl və ot biçini davam etdirilir. Bu il muxtar respublika üzrə 27 min hektardan artıq sahədə yazlıq bitkilər əkilmişdir. Ümumi əkinin 1312 hektarını taxıl, 2137 hektarını paxlalılar, 1667 hektarını dən üçün qarğıdalı, 285 hektarını dən üçün günəbaxan, 6170 hektarını tərəvəz, 3183 hektarını kartof, 2772 hektarını bostan, 9 hektarını tütün, 9472 hektarını isə birillik və çoxillik ot əkinləri təşkil edir. Görülmüş işlərin nəticəsidir ki, 2017-ci ilin yanvar-may ayı ərzində kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 49 milyon 552 min manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2,9 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək demişdir ki, bu ilin birinci yarısında iqtisadi fəaliyyətin müxtəlif sahələrində 8-i özəl investisiya olmaqla 18 istehsal və xidmət sahəsi istifadəyə verilmiş, bu tədbirlərin davamı olaraq 6-sı özəl investisiya olmaqla 16 sahənin yaradılması davam etdirilmiş, muxtar respublikanın rayon və kəndlərində 706 emal sənayesi, kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələri yaradılmışdır. Sahibkarların hüquqlarının müdafiəsi və onların fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması istiqamətində tədbirlər davam etdirilmiş, cari ilin ötən dövrü ərzində 4 sahibkarlıq subyekti "Nəzarət kitabçası" ilə təmin olunmuş, xüsusi fəaliyyət növləri üzrə 12 lisenziya verilmişdir. Hazırda muxtar respublikada fəaliyyət göstərən çoxsaylı müəssisələrdə istehsal olunan ixracyönümlü məhsullar 5 xarici ölkəyə ixrac edilir. İxrac edilən əmtəələr arasında ərzaq, tikinti, mebel, yüngül sənaye məhsulları üstünlük təşkil etmişdir. Qeyd olunan dövrdə 494 ton kənd təsərrüfatı və emal sənayesi məhsullarının mütəmadi keçirilən yarmarkalarda satışı həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsulov sessiyada çıxış edərək bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasında bir il öncəyə nisbətən sənaye məhsulunun həcmi 1,2 faiz, əsas kapitala yönəldilən investisiyalar 1,3 faiz, kənd təsərrüfatının ümumi məhsulu 3,1 faiz, informasiya və rabitə xidmətləri 2 faiz, pərakəndə əmtəə dövriyyəsi 1,3 faiz, əhaliyə göstərilən pullu xidmətlər 1,7 faiz, ixracın həcmi 1,3 faiz, əhalinin gəlirləri 1,1 faiz, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 2,5 faiz artmışdır. Cari ilin ilk yarımili ərzində muxtar respublikada tikinti və ya yenidənqurmadan sonra ümumilikdə, 78 obyekt istifadəyə verilmişdir. Hazırda iqtisadi və sosial sahələrdə 134 müxtəlif obyektin tikintisi və ya yenidən qurulması davam etdirilir. Bu ilin ilk 6 ayı ərzində muxtar respublikada alternativ və bərpa olunan elektrik stansiyalarında elektrik enerjisi istehsalının həcmi ümumi istehsalın 62,7 faizini təşkil etmişdir. Ötən dövrdə muxtar respublikada 204 milyon ABŞ dollarına yaxın məbləğdə xarici ticarət dövriyyəsi qeydə alınmış, muxtar respublikaya 195 min 495 turist gəlmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2017-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzə etmişdir. ***(Ali Məclis Sədrinin məruzəsi qəzetin bugünkü nömrəsində dərc olunur)***

Sessiyanın gündəliyində duran ikinci məsələ ilə bağlı qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı nəticəsində dövlət büdcəsinin gəlirlərində 2 milyon 150 min manat məbləğində artım proqnozlaşdırıldığından və buna müvafiq olaraq xərclərin də tənzimlənməsi zərurəti yarandığından Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsində dəyişikliklər edilməlidir. Müzakirə olunan məsələ ilə əlaqədar qanun layihəsi qəbul edilmişdir.

Gündəlikdə duran üçüncü məsələ ilə əlaqədar deputatların və sessiya iştirakçılarının diqqətinə çatdırılmışdır ki, 2016-cı il sentyabrın 26-da keçirilən referendumla Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilmişdir. Həmin dəyişikliklərə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi üçün qanun layihəsi hazırlanmışdır. Qanun layihəsi 2017-ci ilin fevral ayında keçirilən Ali Məclisin sessiyasında qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 50-ci maddəsinin II hissəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər iki dəfə səsə qoyulur. Buna görə də Qanun layihəsi ikinci səsverməyə çıxarılmışdır.

"Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu oxunmuş və səsə qoyularaq qəbul edilmişdir.

Sessiyanın gündəliyində duran dördüncü məsələnin müzakirəsi zamanı bildirilmişdir ki, Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli Qanunu ilə Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişikliklər edilmişdir. Həmin dəyişikliklərə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Qanunda dəyişikliklər edilməsi üçün qanun layihəsi hazırlanmışdır.

"Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq qəbul edilmişdir.

Ali Məclisin Sədri demişdir ki, Naxçıvan Muxtar Respublikasında iri toxumçuluq təsərrüfatları yaradılmış, keyfiyyətli yerli toxum növlərinin yetişdirilməsi və satışına diqqət artırılmışdır. Bunun nəticəsi olaraq muxtar respublikada toxum istehsalının, tədarükünün və istifadəsinin hüquqi tənzimlənməsinə ehtiyac yaranmışdır. Qeyd olunanlar əsas götürülərək "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi hazırlanmışdır. Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsində müzakirə edilmiş, layihəyə əlavə və ya təkliflər olmamışdır.

Sessiyada "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu səsə qoyularaq qəbul olunmuşdur.

Gündəlikdə duran altıncı məsələ "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun qəbul edilməsi barədə olmuşdur. Diqqətə çatdırılmışdır ki, bu Qanunun qəbul olunmasını zəruri edən əsas məsələ dövlət orqanları tərəfindən əhaliyə pullu xidmətlər göstərilməsi işinin tənzimlənməsidir. Belə ki, mövcud qanunvericiliyə əsasən dövlət orqanları təsərrüfat idarəçiliyi ilə məşğul olmaq və pullu xidmətlər göstərmək səlahiyyətinə malik deyillər. Təklif olunan qanun isə bu problemləri aradan qaldıracaq, publik hüquqi şəxs hesab olunan dövlət orqanlarına yeni imkanlar yaradacaqdır. Publik hüquqi şəxs göstərdiyi xidmətlərlə özünü maliyyələşdirə bilər. Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komitəsində müzakirə edilmiş, layihəyə əlavə və ya təkliflər olmamışdır.

Sessiyada "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu səsə qoyularaq qəbul edilmişdir.

Ali Məclisin Sədri 2017-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında əməyi, sabitliyin və təhlükəsizliyin qorunmasında xidməti olanlara təşəkkürünü bildirmiş, cari ilin qarşıdakı altı ayında inkişafın təmin olunmasında sessiya iştirakçılarına, muxtar respublikanın hər bir sakininə uğurlar arzulamışdır.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci çağırış altıncı sessiyası öz işini başa çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun

## M Ə R U Z Ə S İ

Hörmətli deputatlar və sessiya iştirakçıları!

2017-ci ilin birinci yarısında mövcud ehtiyatlardan səmərəli istifadə etməklə sosial layihələrin həyata keçirilməsi, insanların rahat yaşayışı və təhlükəsizliyi, iqtisadi və sosial həyatın bütün sahələrində inkişaf meyillərinin qorunub saxlanılması təmin edilib.

Muxtar respublikanın sosial-iqtisadi inkişafını sürətləndirmək, davamlı və tarazlı inkişafa nail olmaq üçün mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qarşısında mühüm vəzifələr durur. İlk növbədə idarəetmənin bütün mərhələlərində nizam-intizam və işə tələbkarlıq artırılmalıdır.

Növbəti altı ayda iqtisadi inkişafın əsas göstəricisi kimi makroiqtisadi sabitliyin möhkəmləndirilməsi diqqət mərkəzində saxlanılmalı, dövlət büdcəsinin proqnoz göstəricilərinin icrası təmin edilməlidir. **Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi** bütün tədiyə növləri üzrə vergi və rüsumların vaxtında ödənilməsinə nail olmalıdır.

Büdcə gəlirlərinin təmin olunması üçün **Maliyyə Nazirliyi** nəzarət tədbirlərini gücləndirməli, pul vəsaitlərindən təyinatına uyğun şəkildə istifadəyə nəzarət olunmalıdır.

Muxtar respublikada fəaliyyət göstərən **bank və kredit təşkilatları** tərəfindən sahibkarlığın inkişafına dəstək davam etdirilməli, verilmiş kreditlərin təyinatı üzrə istifadəsinə və vaxtında qaytarılmasına diqqət artırılmalıdır.

Dayanıqlı inkişafın təmin edilməsi üçün biznes mühiti daha da yaxşılaşdırılmalıdır. Bununla yanaşı yerli istehsalın həcmi artırılmalı, daxili bazar qorunmalı, istehlak qiymətlərinə daim nəzarət olunmalı, süni qiymət artımına yol verilməməlidir.

Müasir dövrdə iqtisadiyyat xarici aləmdən tamamilə təcrid olunmuş şəkildə inkişaf etdirilə bilməz. Xarici iqtisadi-ticarət əlaqələrində idxalın həcminin azaldılması və ixrac imkanlarının genişləndirilməsi çox vacibdir. **İqtisadiyyat Nazirliyi** mövcud təbii və əmək resurslarından səmərəli istifadəyə əsaslanan istehsal müəssisələrinin yaradılmasına diqqəti artırmalı, sahibkarlıq subyektlərinə hərtərəfli köməklik göstərilməlidir.

**İqtisadiyyat Nazirliyi Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi** ilə birlikdə xarici bazarlara çıxış imkanına malik məhsul istehsalına diqqəti artırmalıdır. Qarşıdakı dövrdə bu imkanlar bir daha araşdırılmalı, ixracın coğrafiyası genişləndirilməlidir.

Ərzaq təhlükəsizliyinin təmin olunması inkişafın əsas şərtidir. Müstəqilliyin ilk illərində mağazalarda gündəlik tələbat malları tapmaq müşkülə çevrilmişdisə, indi muxtar respublikada əksər ərzaq məhsullarına olan tələbat daxili imkanlar hesabına ödənilir. Bütün bunlara həyata keçirilən davamlı islahatlar və kənd təsərrüfatının kompleks inkişafı nəticəsində nail olunmuşdur. Məhsul istehsalçılarına güzəştli şərtlərlə kreditlərin verilməsi və maliyyə dəstəyinin göstərilməsi, texnika və gübrə təminatı, mütərəqqi əkin və suvarma metodlarının tətbiqi, daxili bazarın qorunması, hazır məhsulun satışı və saxlanılması üçün əlverişli şəraitin yaradılması kəndlinin torpağa bağlılığını xeyli artırmışdır. 61 min 531 hektar sahədə kənd təsərrüfatı əkinləri aparılmışdır ki, bu da əvvəlki illərlə müqayisədə xeyli artıqdır. Lakin muxtar respublikanın relyef quruluşu və torpaq xüsusiyyətləri əkin sahələrini hədsiz genişləndirməyə imkan vermir. Ona görə də **Kənd Təsərrüfatı Nazirliyi** aidiyyəti orqanlarla birlikdə əkinçilikdə məhsuldarlığın yüksəldilməsinə nail olmalı, mütərəqqi metodlardan istifadəyə üstünlük verilməlidir.

**Kənd Təsərrüfatı Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi, şəhər və rayon icra hakimiyyətləri** əkinəyararlı torpaqlardan kənar məqsədlər üçün istifadənin qarşısını almalıdır. Torpaqların elektron uçotu və xəritələşdirilməsi işi vaxtında başa çatdırılmalıdır.

Məhsuldarlığın yüksəldilməsində keyfiyyətli toxumdan istifadə vacib məsələdir. Cari ilin ötən dövründə məhsul istehsalçılarına dəstək məqsədilə ən müasir avadanlıqlarla təchiz olunmuş "Bərəkət Toxumçuluq Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlamışdır. **Kənd Təsərrüfatı Nazirliyi İqtisadiyyat Nazirliyi** ilə birlikdə yüksək məhsuldarlığa malik keyfiyyətli toxum növlərinin, xüsusilə yerli genofonda daxil olan növlərin yetişdirilməsi, toplanması və fermerlərə satışının təşkilini diqqətdə saxlamalıdır.

Son illər həyata keçirilən meliorativ tədbirlər, mütərəqqi suvarma sistemlərinin istifadəyə verilməsi yeni torpaqların əkin dövriyyəsinə qatılmasına, su itkisinin və şoranlaşmanın qarşısının alınmasına səbəb olmuşdur. **Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi yerli icra hakimiyyətləri** ilə birlikdə suvarma suyunun bölgüsünə və ondan səmərəli istifadəyə nəzarəti bundan sonra da davam etdirməlidir.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi** əkin üçün yararlı olmayan ərazilərdə yaşıllıq zolaqlarının salınmasına, mövcud yaşıllıqların və bitki örtüyünün qorunmasına diqqəti artırmalıdır.

**Dövlət Baytarlıq Xidməti** heyvandarlıqda müxtəlif xəstəliklərə qarşı mübarizə tədbirlərini genişləndirməli, **"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin** mərkəzi və rayon bazalarında yaradılmış kənd təsərrüfatı aptekləri tələbata uyğun dərman preparatları ilə təmin olunmalıdır.

Əsas kapitala investisiya qoyuluşlarının həcminin ildən-ilə çoxalması kəndlə şəhər arasındakı fərqin aradan qalxmasına səbəb olmuş, insanların məskunlaşmasını, rahatlığını təmin etmiş, qəsəbə və kəndlərin inkişafı sürətləndirilmişdir. Cari ildə də bu istiqamətdə işlər davam etdirilir, içməli su layihələri icra olunur, kənd yolları abadlaşdırılır, qəzalı vəziyyətdə olan məktəblər, mədəniyyət və səhiyyə müəssisələri yenidən qurulur. **Dövlət Şəhərsalma və Arxitektura Komitəsi** inşaat işlərində keyfiyyətə üstünlük verməklə əlavə xərclərin qarşısını almalıdır.

Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması elektrik enerjisi və təbii qaz təchizatında fasiləsizliyi təmin edib. Dövlət müəssisə və təşkilatları enerji daşıyıcılarından qənaətlə istifadəni diqqət mərkəzində saxlamalı, bundan sonra da israfçılığın qarşısı alınmalıdır. **Dövlət Energetika Xidməti və "Naxçıvanqaz" İstehsalat Birliyi** verilən elektrik enerjisi və təbii qazın dayanıqlı olması üçün sistemin müasirləşməsi işini davam etdirməlidirlər.

**Nəqliyyat Nazirliyi** ictimai nəqliyyatda xidmətin keyfiyyətinə və xəttə buraxılan nəqliyyat vasitələrinin texniki cəhətdən saz olmasına nəzarəti artırmalıdır.

**Rabitə və Yeni Texnologiyalar Nazirliyi** göstərilən xidmətlərin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə mövcud infrastrukturun yenilənməsi, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində tədbirləri davam etdirməlidir.

Muxtar respublikada məşğulluq problemi daim diqqət mərkəzində saxlanılır. İstər dövlət, istərsə də özəl sektorda yeni iş yerləri yaradılır. Lakin əhali sayında müşahidə olunan müsbət dinamika öz növbəsində gələcəkdə yeni iş yerlərinə tələbatı artıracaqdır. Ona görə də vətəndaşlar üçün daha əlverişli olan özünüməşğulluq sisteminə keçməkdir. Artıq ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılması istiqamətində ilk addımlar atılıb. **Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri yerli icra orqanları** ilə birlikdə ailə təsərrüfatlarının formalaşması üçün səylərini artırmalıdırlar.

İqtisadi sahədə əldə olunan gəlirlərin ilk növbədə insan kapitalının formalaşdırılmasına yönəldilməsi qarşıda duran əsas vəzifələrdəndir. Savadlı, müasir dövrün tələblərinə cavab verən kadr potensialının yetişdirilməsi isə **elm və təhsil** quruculuğu sahəsində aparılan islahatlardan xeyli asılıdır. Bu baxımdan muxtar respublikada təhsilin bütün mərhələləri üzrə infrastrukturun yenilənməsinə, müasir informasiya texnologiyaları və tədris vasitələri ilə təchiz olunmuş məktəb binalarının istifadəyə verilməsinə xüsusi diqqət yetirilir. **Təhsil Nazirliyi** yaradılan tədris infrastrukturundan səmərəli istifadəyə, tədrisin keyfiyyətinin yüksəldilməsinə diqqəti artırmalı, gələcəyimiz olan gənclərin savadlı, geniş dünyagörüşlü, vətənpərvər və fiziki cəhətdən sağlam yetişdirilməsi əsas vəzifə olmalıdır.

**Gənclər və İdman Nazirliyi Təhsil Nazirliyi** ilə birlikdə təhsil müəssisələrində olan idman qurğu və obyektlərindən səmərəli istifadəyə nail olmalı, bununla yanaşı olimpiya idman komplekslərindən istifadəyə və onların qorunub saxlanılmasına da diqqəti artırmalıdır. İdman növlərinin inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, asudə vaxtlarının səmərəli təşkili, onların həvəsləndirilməsi sahəsində fəaliyyət gücləndirilməlidir.

**Ali və orta ixtisas təhsili müəssisələri** müvafiq ixtisaslar üzrə tədris və tədris-metodik ədəbiyyatların hazırlanmasına diqqəti artırmalı, müəllim və tələbə mübadiləsini davam etdirməli, təcrübi dərslərin hami təşkilatlarda keçirilməsinə üstünlük verməlidirlər.

**Mədəniyyət və Turizm Nazirliyi** kadrların düzgün yerləşdirilməsini nəzarətdə saxlamalı, yay dövründə bədii-kütləvi tədbirlərin keçirilməsi davam etdirilməlidir.

Tibbi xidmətlərin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə **Səhiyyə Nazirliyi** tibb işçilərinin sertifikasiyasını və onların təcrübələrinin artırılması sahəsində işləri davam etdirməli, tibbi avadanlıqlardan səmərəli istifadəni təmin etməli və səhiyyə maarifi işini gücləndirməlidir.

İnformasiya vermək, maarifləndirmək, bu günümüzün tarixini yaratmaq, milli dəyərlərimizi təbliğ etmək və ictimaiyyəti düzgün istiqamətləndirmək **teleradio və qəzetlərin** qarşısında duran əsas vəzifələrdir. **Muxtar respublikanın kütləvi informasiya vasitələri** fəaliyyətlərini bu tələblərə uyğun qurmalı, qəbul olunmuş dövlət proqramlarının icrasını diqqətdə saxlamalı, vətənpərvərlik mövzusunda materialların hazırlanması davam etdirilməlidir. Naxçıvan Muxtar Respublikasının müasir inkişafı, zəngin tarixi-mədəni irsi və turizm potensialı haqqında peşəkar materiallar hazırlanmalıdır.

Davamlı iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, gənclərin səmərəli məşğulluğunun təmin edilməsi muxtar respublikada cinayətkarlığın aşağı səviyyədə olmasını təmin etmişdir. **Hüquq mühafizə orqanları** yaradılan şəraitdən istifadə edərək maarifləndirmə-profilaktika tədbirlərini düzgün təşkil etməli, nizam-intizamı daim möhkəmləndirməli, ictimai asayişin və sabitliyin qorunması üçün səylə çalışmalıdırlar.

**Ordu, birləşmə və hərbi hissələrdə** döyüş hazırlığı artırılmalı, birgə fəaliyyət üçün planlar olmalı, günün nizam qaydaları yerli şərait nəzərə alınmaqla vahid formada tənzimlənməlidir.

Hörmətli sessiya iştirakçıları!

Naxçıvan Muxtar Respublikasında 2017-ci ilin ilk yarısının nəticələri həyata keçirilən tədbirlərin düzgün olduğunu bir daha təsdiq edir. 2017-ci ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş məruzəsində ölkə rəhbəri cənab İlham Əliyevin də dediyi kimi, ***"2017-ci il iqtisadi inkişaf ili olmalıdır... Keçən il iqtisadi, maliyyə sabitləşməsi ili olmuşdur. Bu il isə inkişaf ili olacaq. Əminəm ki, bundan sonrakı illərdə də iqtisadi potensialımız daha da güclənəcəkdir".***

Sağ olun.

## Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında Naxçıvan Muxtar Respublikasının

## Q A N U N U

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 50-ci maddəsinin I hissəsini rəhbər tutaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında aşağıdakı dəyişikliklər edilsin:

1. 8-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 8. Naxçıvan Muxtar Respublikasında vətəndaşların seçki hüququ**

I. Naxçıvan Muxtar Respublikasının ərazisində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları seçmək və seçilmək hüququna malikdirlər.

II. Məhkəmələr tərəfindən fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə iştirak etmək hüququ yoxdur.

III. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və Qanunda nəzərdə tutulan digər şəxslərin seçilmək hüququ qanunla məhdudlaşdırıla bilər.".

2. 15-ci maddənin I hissəsində "yaşı 25-dən aşağı olmayan" sözləri "seçkilərdə iştirak etmək hüququna malik olan" sözləri ilə əvəz edilsin.

3. 19-cu maddənin I hissəsinin birinci bəndinin 5-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6-cı və 7-ci yarımbəndlər əlavə edilsin:

"6) bu Konstitusiyanın 23-cü maddəsinin III hissəsinin tələbini pozduqda;

7) deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda.".

4. 29-cu maddənin II hissəsindən "Yaşı otuzdan aşağı olmayan," sözləri çıxarılsın.

5. 41-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan Muxtar Respublikasının Baş naziri, Baş nazirin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanı rəhbəri vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.".

6. 43-cü maddənin III hissəsində "Azərbaycan Respublikasının Konstitusiyası" sözləri "Konstitusiya" sözü ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 iyul 2017-ci il*

## "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Naxçıvan Muxtar Respublikasının

## QANUNU

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1. 80.1-ci maddədə və 83.4-cü maddənin birinci cümləsində "Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublika İdarəsi" sözləri "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi" sözləri ilə əvəz edilsin.

2. 84.2.2-ci maddədə "Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən" sözləri "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsindən" sözləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 iyul 2017-ci il*

## "Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Naxçıvan Muxtar Respublikasının

## QANUNU

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

"Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun 1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"**Maddə 1.** Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsinin gəlirləri 71 650 000,0 manat, xərcləri 350 550 000,0 manat, gəlir və xərcləri tənzimləmək üçün ayrılan dotasiya 278 900 000,0 manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 49 288 000,0 manat, yerli gəlirləri 22 362 000,0 manat və mərkəzləşdirilmiş xərcləri 326 374 000,0 manat, yerli xərcləri 24 176 000,0 manat) məbləğində təsdiq edilsin."

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 iyul 2017-ci il*

## "Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının 2017-ci il 25 iyul tarixli 10-V QN nömrəli Qanununun tətbiqi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## FƏRMANI

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının 2017-ci il 25 iyul tarixli 10-V QN nömrəli Qanununa uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

2. həmin Qanundan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 iyul 2017-ci il*

## Publik hüquqi şəxslər haqqında Naxçıvan Muxtar Respublikasının

## QANUNU

**Maddə 1. Bu Qanunun tətbiq dairəsi**

Bu Qanun Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 10-cu bəndinə uyğun olaraq, publik hüquqi şəxslərin yaradılması, fəaliyyət göstərməsi və təşkili qaydalarını müəyyən edir.

**Maddə 2. Bu Qanunda istifadə edilən anlayışlar**

2.1. Publik hüquq – ümumdövlət və ya ictimai maraqların təmin edilməsi ilə bağlı olan münasibətləri tənzimləyən hüquq normalarının məcmusudur.

2.2. Publik hüquqi şəxs – dövlət və bələdiyyə adından və ya publik hüquqi şəxs tərəfindən yaradılan, ümumdövlət və ya ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatdır.

**Maddə 3. Publik hüquqi şəxsin fəaliyyəti**

3.1. Publik hüquqi şəxslər sahibkarlıq fəaliyyəti ilə yalnız o hallarda məşğul ola bilərlər ki, bu fəaliyyət onların yaradılması zamanı və nizamnaməsində qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin.

3.2. Publik hüquqi şəxs nizamnaməsində nəzərdə tutulmuş halda təsərrüfat cəmiyyətləri yarada və ya onlarda iştirak edə bilər.

3.3. Publik hüquqi şəxsin mənfəəti onun nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün yalnız təsisçinin qərarı ilə müvafiq olaraq dövlət büdcəsinə və yerli büdcəyə köçürülə bilər.

3.4. Publik hüquqi şəxs "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətləri göstərdiyi və hüquqi hərəkətləri həyata keçirdiyi halda müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu tutur.

**Maddə 4. Publik hüquqi şəxsin yaradılması**

4.1. Publik hüquqi şəxs dövlət adından müvafiq icra hakimiyyəti orqanı, bələdiyyə adından isə müvafiq bələdiyyə orqanları tərəfindən yaradılır.

4.2. Bu Qanunun 4.1-ci maddəsinə uyğun olaraq yaradılan publik hüquqi şəxslər tərəfindən də nizamnaməsində nəzərdə tutulmuş halda publik hüquqi şəxslər yaradıla bilər.

4.3. Bu Qanunla müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, publik hüquqi şəxsin yaradılması ilə bağlı digər məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

4.4. Publik hüquqi şəxs qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusunu əldə edir.

**Maddə 5. Publik hüquqi şəxsin hüquq qabiliyyəti**

5.1. Publik hüquqi şəxs dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malik olmaqla mülki vəzifələr daşıyır və publik hüquqi şəxsin hüquq qabiliyyətinə onun ləğvinin başa çatdığı an xitam verilir.

5.2. Publik hüquqi şəxs yalnız nizamnaməsində nəzərdə tutulmuş fəaliyyət ilə məşğul ola bilər.

5.3. Publik hüquqi şəxs müflis elan oluna bilməz.

**Maddə 6. Publik hüquqi şəxsin nizamnaməsi**

6.1. Müxtəlif sahələr üzrə publik hüquqi şəxsin nümunəvi nizamnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən oluna bilər.

6.2. Publik hüquqi şəxsin nizamnaməsində aşağıdakılar göstərilir:

6.2.1. adı, olduğu yer və publik hüquqi şəxs olduğu;

6.2.2. nizamnamənin qəbulu və ona dəyişikliklərin edilməsi qaydası;

6.2.3. fəaliyyətin məqsədi və istiqamətləri;

6.2.4. idarə olunma qaydası;

6.2.5. publik hüquqi şəxsin üzərində nəzarətin forması və əhatə dairəsi;

6.2.6. nizamnamə fondu;

6.2.7. əmlakının formalaşma mənbələri, maliyyə fəaliyyətinin əsasları, publik hüquqi şəxsin məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətlərinin tənzimlənən qiymət olub-olmaması;

6.2.8. təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak etmək hüququ (verildiyi halda);

6.2.9. bu Qanunun 6.4-cü maddəsində nəzərdə tutulmuş müddəa;

6.2.10. publik hüquqi şəxsin fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması qaydası;

6.2.11. ləğvi və yenidən təşkili qaydası.

6.3. Dövlətin adından yaradılan publik hüquqi şəxsin nizamnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən, bələdiyyə adından yaradılan publik hüquqi şəxsin nizamnaməsi isə müvafiq bələdiyyə tərəfindən təsdiq edilir.

6.4. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda hüquqi faktların qeydiyyatı ilə bağlı xidmətləri göstərən (hüquqi hərəkətləri həyata keçirən) müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan publik hüquqi şəxsin əməkdaşları nizamnaməsində nəzərdə tutulmuş halda dövlət qulluqçularına bərabər tutulurlar.

**Maddə 7. Publik hüquqi şəxsin əmlakı, idarə olunması**

Publik hüquqi şəxsin əmlakı və idarə olunması ilə bağlı məsələlər onun nizamnaməsi və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

**Maddə 8. Publik hüquqi şəxsin yenidən təşkili və ləğvi**

Publik hüquqi şəxsin ləğvi və yenidən təşkili ilə bağlı məsələlər onun nizamnaməsi və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 iyul 2017-ci il*

## "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının 2017-ci il 25 iyul tarixli 14-V QN nömrəli Qanununun tətbiqi barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## FƏRMANI

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının 2017-ci il 25 iyul tarixli 14-V QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

Müəyyən edilsin ki:

1. "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 4.1-ci və 6.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müəyyən etdiyi icra hakimiyyəti orqanı həyata keçirir;

2. həmin Qanunun 6.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri həyata keçirir;

3. həmin Qanunun 4.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi həyata keçirir;

4. həmin Qanunun 6.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 iyul 2017-ci il*

## “Naxçıvan Muxtar Respublikasının müalicə turizm potensialı” mövzusunda maarifləndirici tədbir keçirilib



*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə “Naxçıvan Muxtar Respublikasının müalicə turizm potensialı” mövzusunda maarifləndirici tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Nərmin Səfərova açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.

Görüşdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Ayaz Əliyev çıxış edərək muxtar respublikanın müalicə turizmi potensialından bəhs edib.

Slaydlarla müşayiət olunan çıxışda bildirilib ki, muxtar respublikada müalicə turizminin inkişafı üçün də geniş imkanlar vardır. Duzdağ Fizioterapiya Mərkəzində tənəffüs yolları xəstəliklərindən əziyyət çəkənlər üçün müasir şərait yaradılıb. Buraya hər il müxtəlif ölkələrdən yüzlərlə insanın müalicəyə gəlməsi həm də onun turizm əhəmiyyətini artırır. Darıdağ Arsenli Su Müalicəxanası da müalicə turizmi sahəsində böyük imkanlara malikdir. Azərbaycanın mineral su ehtiyatlarının 60 faizi muxtar respublikanın payına düşür. Süfrələrin bəzəyi olan “Badamlı” və “Sirab” artıq çoxdan ölkəmizdən kənarda da şəfalı sular kimi şöhrət tapıb.

Sonra tədbir iştirakçıları Duzdağ Fizioterapiya Mərkəzində olublar. Burada əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə məlumat verilib ki, Naxçıvan özünün nadir təbii-tarixi ehtiyatları, müasir iqtisadi inkişafı və xidmət sektorundakı keyfiyyətli servisləri ilə hər kəsin diqqətini cəlb etməkdədir. Unikal müalicəvi keyfiyyətlərinə görə dünyada tanınmış Duzdağ Fizioterapiya Mərkəzi də təklif etdiyi səhiyyə xidməti ilə muxtar respublikamıza gələn turistlərin sevimli istirahət və müalicə məkanıdır.

Ümumiyyətlə, Naxçıvanın suyu, havası kimi, duzu da min bir dərdin dərmanıdır. Təbiətin bu torpağa bəxş etdiyi bütün nemətlər ölkəmizin milli sərvətidir. Duzdağın möcüzəli müalicəvi xüsusiyyətləri də bir sərvət kimi həm ölkəmizdə, həm də bütün dünyada yuxarı tənəffüs yolları xəstəliklərindən əziyyət çəkənləri əvvəlki sağlamlığına qovuşdurmaqla, əslində, bütün insanlığa xidmət etməkdədir.

**Nail ƏSGƏROV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 4 avqust 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 0,108 hektar torpaq sahəsində yerləşən 75 nömrəli, 5 mərtəbəli binanın 3-cü girişi, 2-ci mərtəbəsində 69,95 kvadratmetr ümumi, 54,6 kvadratmetr yaşayış sahəsindən ibarət 4 otaqlı, 22 nömrəli mənzil | Naxçıvan şəhəri, “İstiqlal” küçəsi | 45 000 | 2 250 |
| 2. | 0,1047 hektar torpaq sahəsində yerləşən 2 mərtəbəli, 4 otaqlı, 35,55 kvadratmetr yaşayış, 111,58 kvadratmetr qeyri-yaşayış, 54,52 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Cəhri kəndi | 41 600 | 2 080 |
| 3. | 0,2001 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 47,04 kvadratmetr olan fərdi yaşayış evi | Sədərək rayonu, Qaraağac kəndi | 27 500 | 1 375 |
| 4. | 0,1319 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 32,00 kvadratmetr yaşayış, 64,97 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Aza kəndi | 24 000 | 1 200 |
| 5. | 1942,4 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 6 otaqlı, 210,0 kvadratmetr yaşayış, 139,5 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Sədərək rayonu, Sədərək kəndi | 22 404,20 | 1120,21 |
| 6. | 0,1381 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 72,80 kvadratmetr yaşayış, 40,8 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Darkənd kəndi | 20 000 | 1 000 |
| 7. | 1096,7 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 74,8 kvadratmetr yaşayış, 49,14 kvadratmetr qeyri-yaşayış, 10,5 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Darkənd kəndi | 20 000 | 1 000 |
| 8. | 0,01217 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 77,15 kvadratmetr yaşayış, 44,29 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Sədərək rayonu, Qaraağac kəndi | 16 460,78 | 823,39 |
| 9. | 0,1231 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 59,56 kvadratmetr yaşayış, 80,16 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Aza kəndi | 16 000 | 800 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5% məbləğində beh Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin müəyyən etdiyi hesablaşma hesabına 1 avqust 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 4 avqust 2017-ci il tarixdə, saat 11[00]-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***

***Əlaqə telefonu: 545-01-38***

*Muxtar respublikada idmanın bütün sahələrinin inkişafı, təbliği artıq ənənə halını alıb. Regionda yeni idman bölmələrinin fəaliyyətə başlaması, uşaq və yeniyetmələrin bu sahələrə cəlbi isə bu prosesi daha da sürətləndirib. Sevindirici haldır ki, bu gün Naxçıvanda idmana maraq göstərənlərin sayı getdikcə artmaqdadır. Bu isə onların zərərli vərdişlərdən uzaq durması üçün vacib amillərdəndir.*

## Stolüstü tennis muxtar respublikada sevilən idman növünə çevrilib




Muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən idman bazaları bu sahənin kütləvi hal almasının göstəricisidir. İdman federasiyaları ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən idman bölmələri bu gün regionda bu sahənin geniş vüsət almasına öz töhfəsini verməkdədir. Belə bölmələrdən biri də “Əlincə” stolüstü tennis idman klubudur. Artıq 3 ilə yaxındır ki, muxtar respublikada uşaq, yeniyetmə və gənclərə bu idmanın sirlərini öyrədən klubun 50-dən çox üzvü var. Məşq prosesləri Naxçıvan Üzgüçülük Mərkəzinin zalında aparılır və idmançılar yaşlarına, eyni zamanda oyun təcrübəsinə görə məşqlərdə qrup halında iştirak edirlər.

Ümumiyyətlə, stolüstü tennisin tarixinə nəzər yetirsək, maraqlı nüanslarla qarşılaşa bilərik. Bu idmanın salon tennisi adıyla bilinən ilkin variantı 1880-ci illərdə Hindistan və Cənubi Afrikadakı ingilis ordu zabitləri tərəfindən oynanılıb. Siqar qutularının qapaqlarından raketka, yuvarlaşdırılmış şərab şüşəsi tıxaclarından top, kitablardan isə tor kimi istifadə edirdilər. Daha sonra ingilislər tərəfindən digər versiyaları tətbiq edilən oyun püxtələşdirilməyə başlandı.

Bir müddət sonra istehsalçıların ümumi bir ad olan “table tennis” (stolüstü tennis) adı altında satdıqları avadanlıqlarla bu idman İngiltərə və Avropada yayıldı. 1921-ci ildə İngiltərədə yeni bir stolüstü tennis federasiyası yaradıldı. 1926-cı ildə Berlində İngiltərə, İsveç, Macarıstan, Hindistan, Danimarka, Almaniya, Çexoslovakiya və Avstriyanın iştirakı ilə keçirilən yığıncaqda Beynəlxalq Stolüstü Tennis Federasiyası təsis edildi. Maraqlı olan digər məqam isə asiyalı oyunçuların “Penholder tutuşu” adı verilən və raketka sapının baş barmaq ilə işarə barmağı arasında tutulmuş formasını inkişaf etdirmələridir. Bu şəkildə hər növ vuruş üçün raketkanın eyni üzündən istifadə etmək mümkündür. Bu forma bu gün bir çox oyunçu tərəfindən istifadə edilməkdədir. 1988-ci ildə stolüstü tennis kişi və qadınlarda təklər və cütlər müsabiqələrini ehtiva edən olimpiya-idman növü statusunu aldı.

Azərbaycan Stolüstü Tennis Federasiyası 1995-ci ildən 207 dövlətin milli federasiyalarını özündə birləşdirən Beynəlxalq Stolüstü Tennis Federasiyasının və 56 Avropa Milli federasiyasının daxil olduğu Avropa Stolüstü Tennis Birliyinin və 2007-ci ildən Şərqi Avropa Liqasının üzvüdür.

Regionlarda, xüsusilə Naxçıvanda bu növün inkişafı üçün mühüm işlər görülür. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində olan bölmə lazımi idman avadanlıqları ilə təmin edilib. Üzgüçülük Mərkəzində yeni tennis stolları quraşdırılıb və bu idman növü ilə məşğul olmaq istəyənlər üçün hərtərəfli şərait yaradılıb. Mərkəzdə uşaqlara bu növün sirlərini öyrədən məşqçi-müəllim Novruz Novruzov bizimlə söhbətində ilk olaraq stolüstü tennis idman növünün qaydaları barədə məlumat verərək dedi: “Stolüstü tennis sürətli bir oyun olduğu üçün geniş zallarda keçirilir. Beynəlxalq turnirlərdə bu oyun 2 və ya 4 idmançı arasında oynanılır. Tennis stolunun arxasında olan idmançılar hər qazanılan xaldan sonra oyunu yenidən başlayırlar. Oyunçulardan biri set atışını başlayır və öz tərəfinə topu bir dəfə vurmaqla digər səhəyə yollayır. Stoladəymə yalnız topu oyuna daxil edərkən olur. Stolüstü tennis topunun diametri isə 40 millimetrdir”.

“Həftənin 2, 4 və 6-cı günləri uşaqlara stolüstü tennisin qaydaları öyrədilir”, – deyən məşqçi-müəllim bu növə böyük maraq göstərildiyini bildirdi: “Bizim əsas məqsədimiz yerli idmançıları, idman mütəxəssislərini beynəlxalq stolüstü tennisin yeni qaydaları ilə tanış etmək, onların ixtisaslarını artırmaq və hazırlıq səviyyələrini müəyyən etməkdir. Bunun üçün hər bir idman avadanlığı ilə təmin edilmişik. Üzərimizə düşən məsuliyyətli işin öhdəsindən gəlmək üçün böyük həvəslə çalışırıq. Nazirlik tərəfindən hər zaman bölməmizdəki idmançılara diqqət göstərilir. Çalışırıq ki, bu diqqəti qarşılıqsız qoymayaq və keçiriləcək ölkədaxili yarışlara idmançı hazırlayaq. Beynəlxalq tennis aləminə inteqrasiya olunmağın xüsusi önəm daşıdığını nəzərə alaraq deyə bilərəm ki, qarşıdakı illərdə naxçıvanlı tennisçilər böyük uğurlar əldə edəcəklər”.

Stolüstü tennis sağlamlıq baxımından digər idman növlərindən bir az fərqlənir. Bu növ daha çox diqqət və çəldlik tələb etdiyindən, idmançıların şüuruna bilavasitə təsir göstərir. Xüsusilə uşaqların bu növlə məşğul olmaları məsləhət görülür. Çünki stolüstü tennis oynayarkən əlinlə bərabər, topa gözlərinlə də diqqət etməlisən. Diqqətin yayınarsa, o zaman əlin köməyinə çatmaz. Stolüstü tennis başla düşünülüb əllə çəldlik tələb edən oyundur.

Ölkəmizdə idmana dövlət səviyyəsində böyük diqqət və qayğı göstərildiyini vurğulayan, bu idman növünün təbliği və inkişafı istiqamətində görülən işlərdən danışan Novruz Novruzov muxtar respublikamızda beynəlxalq standartlara cavab verən idman və sağlamlıq infrastrukturunun yaradıldığını, Naxçıvanın ən nüfuzlu idman tədbirlərinin keçirildiyi məkana çevrildiyini də qeyd etdi. Məşqçi-müəllim son 3 ildə idmanın stolüstü tennis növünün inkişafını, idmançılarımızın qazandığı uğurları yaradılan şəraitlə əlaqələndirdi və buna görə minnətdarlığını bildirdi.

**Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

Rəhimova Nəzakət Ağəli qızının adına Naxçıvan Tibb Kolleci tərəfindən verilmiş diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 598